# FOLKLORÇU EMİN ABİD

ELİ HÜSEYN OĞLU ŞAMİL

Folklorumuzun tarihinin ve nezeri problemlerinin öğrenilmesinde büyük hizmeti olmuş Emin Abid indiyedek olduğu kimi tanıdılmayıb. Araşdırıcının doğru-düzgün türcümey-halı yayınlanmış bir qaynaq bele yohdu. 30 ile yahın onun heyat ve yaradıcılığının öyrenilmesine ilgi göstersem de men de yanıllıxlara yol vermişem. Buna sebep Sovetler Birliyinin qapalı arhivleri idi. 1998-ci ilin sentyabrında ilk defe Azerbaycan Milli Tehlükesizlik Nazirliyinin arhivinde çalışmağa izin ala bildim. Emin Abidin ölümü, heyatı ve yaradıcılığı ile bağlı faktları ondan sonra aydınlaşdı.

Stalinin ölümünden 1953) sonra Sovetler Birliyinde bir herekat başladı. Dövleti hilas etmek üçün bütün günahlar bir neferin Satlinin adına yazıldı. Stalin şehsiyyete perestlikde, sosializmin qanunlarına düzgün emel etmekde, yüz minlerle insanın haqsız güllelenmesine, hebsine ve sürgün edilmsine rehberlik etmekde suçlandırıldı.

1922-1953-cü illerde (esasen de 1937-38-ci illerde) "Halq düşmeni" damğası ile cezalandırılanların ekseriyyetine beraet verildi. Eslinde onlardan çohu y güllelenmiş, ya da ağır hebshana şeraitine dözmeyib helak olmuşdu. Sağ qalanlar ise fiziki ve psiholoji cehetden ele veziyyete salınmışdı bir daha quruluşa, hökümete qarşı çıhacaq, yazıb-yaradacaq halda deyildiler.

Eslinde onlara fiziki beraet verilmişdi. İdeoloji beraet üçün quruluşun deyişmesi, Sovetler Birliyinin dağılması lazım gelirdi. Beraet verilmiş yazıçı ve şairlerin, araşdırıclarının eserlerinin geniş öyrenilib tebliğ edilmesine mühtelif engeller töredilirdi. Gec de olsa 1962-ci ilin dekabrın 21-de Emin Abide beraet verildi.[1] Lakin ömür yolunun öyrenilmesi, yaradıcılığının araşdırılıb tebliğ edilmesi engellendi. Çünki E.Abid bedii yaradıcılığında kommunizm idiologiyası adı altında sömürgeçilere, elmi yaradıcılıqda ise ümumtürk edebiyyatını parçalayıb mehelli edebiyyatlar yaratmaq isteyenlere qarşı dururmuşdu.

Önce yayınlanmış araşdırmalardakı yanlışlıqlar tekrarlanmasın diye Emin Abidin qısa tercümeyi-halını verirem. Elm aleminde Emin Abid kimi tanınan araştırıcının adı Zeynalabdin, atasının adı Mütellib, sayodı Ehmedovdur.[2] Sonuncu Bakı hanı Hüseynqulunun soyundan olan[3] Zeynalabdin 1898-ci ilin noyabrın 2-de Bakıda doğulub.[4] İlk tehsilini anası Reyhan Adnan qızının evde açdığı mektebde, orta tehsilini hakim dairelerin müstemleke altında sahladıqları millet ve halqlardan idare etmede lazım gelen kiçik rütbeli memurlar hazırlamaq üçün yerlerde Rus dilinde açdıqları mekteblerin birinde-Bakıda açılmış III Aleksandır erkek litseyninde almışdı.

1912-ci ilde qezet ve dergilerde Abid, Abid Mütellibzade, Abid Alp Mütellib oğlu, Qozqurab bey ve b. imzalarla meqaleler, hekayeler, şe'rler ve tercümeler çap etdirib. Litsei bitirib Türkiyeye ohumağa getmek isteyib. Birinci Dünya Savaşı buna imkan vermeyib. Qardaşı, milletçi şair Eli Abbas Müznibin naşiri ve redaktoru olduğu "Dirilik", "Babayi-Emir" dergilerinde çalışıb.[5]

1918-ci ilde Osmanlı ordularının yardımı ile Bakı sömürgeçilerden azad olub Azerbaycan Halk Cümhuriyyetinin baş kendine çevrilenden sonra Emin Abid İstanbula ohumağa gede bilib.[6] Önce Darülmüellimeyi-aliyeyi, sonra da Darülfününun Edebiyayat fakültesini bitirib. 1927-ci ilde Bakıya dönüb, pedaqoji tehnikumda, unversitetde, ümumitehsil mekteblerinde ders deyib. 1938-ci ilin iyulun 14-de cesusluqda suçlandırılaraq hebs edilib. Üç ay sonra oktyabrın 21-de saat 21-30 da qetl edilib.[7]

Emin Abid folklarla ilgili ilk araşdırmalarını 1923-cü ilde "Kommunist" qezetinde yayınlatdığını yazanlara men hele unuverstet telebesi olarken (1968-73) cevab vermişdim.[8]

Lakin bu o qeder de diqqeti çeken olmamışdır. Hemin yanlışlıq kitabdan-kitaba, meqaleden-meqaleye keçerek davam etmişdir. Sovetler Birliyinin dağılması Azerbaycanın dünyaya direk çıhışına imkan açmışdır. İndi Türkiyede, İranda elece de dünyanın başqa ölkelerinde yaşayan araşdırıcılar Azerbaycanda yayınlanmış meqale ve kitablardan geniş istifade ede bilirler. Onlar da Azerbaycan folklorşünaslığında özüne "vetendaşlıq hüququ" gazanmış yanlışlığı tekrarlamasınlar deye hemin konuya aydınlıq getirmeye çalışacağıq.

Emin Abidin folklorla ilgili ilk araşdırmasının "Kommunist" qezetinde yayınlandığını önce Abdulla Abbasov söylemişdir. O, yazır: "Kommunist" qezetenin 1923-cü il 5 oktvabr tarihli nömresinde Hüseyn Nicdetin "El şairi Sarı Aşıq", hemin ilin 16 Noyabr nömresinde Emin Abidin "El şairi Aşıq Qerib" meqalesinde Sarı Aşıq haqqında me'lumat verir".[9]

"El şairi Aşıq Qerib" meqalesinde yazılıb: "Haqqında behs etdiyimiz Aşıq Qerib Qaradağlı kendinde teqriben 200 il bundan qabaq doğulmuşdur. Bu yer Zengezur qezasında Hekeri çayı civarında teqriben yüz il bundan eqdem dağılıb harabazara dönmüşdür. Qebir hemin nahiyede Gülevird adlanan kendin yahınlığındadır".[10] Meqalede Aşıq Qerib deye tanıdılan şehsin Sarı Aşıq olduğu deyilmir. Başqa araşdırmalardan Gülebürddeki qebrin Sarı Aşıq qelebli el şairinin olduğunu öyrenirik. Onun esl adı haqqında mübahise bu gün de davam edir.

"El şairi Aşıq Qerib" meqalesi "mabedi var" (ye'ni ardı var - E.Ş.) ifadesi ile bitir. Ne önde, ne sonra meqalenin müelllifi gösterilmeyib.

Qezetin sonrakı saylarında meqalenin mabedini-ardını tapa bilmedik. Aşaqdakı faktlara esaslanaraq bu qenaete gelirik ki, "el şairi Aşıq Qerib" meqalesinin müellifi Emin Abid deyil.

a) Emin Abid hemin vaht istanbulda tehsil alırdı. Araşdırma mövzusu da tamam başqaydı. Qarabağı gezib, folklor materialı toplayıb meqale yazacaq veziyyetde deyildi. Eger İstanbuldan gönder-

miş olsaydı redaksiya mütleq buna işare vererdi. E. Abid İstanbuldan gönderdiyi meqaleleri Bakıda çap eden dergiler bunu edibler.[11]

b) H. Nicdet E. Abidin böyük qardaşı şair Eli Abbas Müznibin oğludur. Mektublardan, hatirelerden bir-birinin hatirini çoh istediyi aydın olur. E. Abid Hüseyn Nicdetin araşdırılmasından ve yahud tersine H.Nicdetin E.Abidin meqalesinden hebersiz olmazdı. Belede birinin aşığı sarı Aşıq, o birinin Aşıq Qerib kimi tanıtması inandırıcı deyil.

v) E. Abid 1933-cü ilde SSRİ EA Azerbaycan filalına işe girmek isterken çap olunan ve olunmayan eserlerinin, hetta şe'r ve tercümelerinin de siyahısını tutub. Orada "El şairi Aşıq Qerib" ve ya Sarı Aşıq adlı mealenin adı yohdur.[12]

q) E. Abid 1928-ci ilde tamamladığ, 1930-cu ilde yayınlatdığı bir meqalesinde[13]yazır: "Salman Mümtaz Aşıq Abdulla adı (Söhbet bu gün sarı Aşıq kimi tanıdığımız el şairinden gedir - E.Ş) bir şairden behs ederken hayatı haqqında da qısaca izahat verir. (Bakı-1927) Çoh qarışıq olan bu izahatda ilk misrada şairin öz adını zikir etmesi haqqında olan iddia Haşım Nahidin fikrinden kopya edilmişdir; ikincisi Oğuzların Bayat şö'besine nisbetle adlandırılması fikri de Köprülüzadenin daha evvelce söylediyi fikrin ("Türkiyyat" mecmuesi, cilid 1, seh. 205) tekrarı demektir".

Emin Abid kimi diqqetcil bir araşdırıcı bunları söyleyerken özünün de hemin mövzuda yazmış olduğunu qeyd etmemesi mümkün deyil.

"El şairi Deli Mehdi" Meqalesinin müellifi Ebdülrehman Dan olduğu gazetede gösterilir.[14] Bele olduğu halda meqalenin Emin Abide aid olub olmadığı mövzusunda mübahiseye girişmeye ehtiyac qalmır.

Hüseyin Nicdetin "El şairi Seferli" ve "Memmed Kazım Pörto" meqaleleri bir sütunda verilmişdir. Meqalenin son parçası ikinci sütuna keçirilmişdir. Hemin sütunda Emin Abidin "Ayrılarken" şe'ri verilib. Mecid Ferzullayev hazırladığı biblioqrafiyada Emin Abid şe'rin deyil, meqalenin müellifi hesab etmekle yanlışlığa yol verib.[15]

Bizce tecrübeli folklorşünaslarımız V.Veliyev[16]. ve P.Efendiyev[17] tekrar-tekrar "Kommunist" qezetinde derc olunmuş "El şairi Deli Mehdi" ve "El şairi Aşıq Qerib"in Abidin olduğunu yazmaqla yanlışlığa yol vermişler.

Folklor araşdırıcılarımızdan V. Veliyev, P.Efendiyev, Ş.Cemşidov, A.Nebiyev, Y.Ramazanov, M.Eliyev ve b. derslik, monoqrafiya ve meqalelerinde E.Abidin yaradıcılığına öteri tohunub, münasibet bildiribler.[18] Onlardan yalnız P.Efendiyev bir meqalesinde E.Abidi folklorçu kimi araşdırıb.[19]

Hele İstabul Universitetinin ebediyyat fakültesinde ohuyarken (1921—26) yazdığı altı cilidlik "Azerbaycan türklerinin edebiyyatı tarih"nın[20] ilk cilidini E.Abid esasen "Kitabi-Dede Qorqud"un araşdırılmasına hesr etmişdir.[21] Bakıya döndükten sonra çap etdirdiyi ayrı-ayrı meqalesini ise tam bu mövzuya hesr edib.[22] Belelikle Azerbaycanda Qorqudşünaslığın esasını qoyub.[23]

1927-ci ilin başlanğıcında Emin Abid Bakıya döndükde başqa ovqatla

qarşılaşdı. 1918-ci ilde İstanbula ohumağa yola düşerken milli şüurun yükselmesini, halqda özünüdergin güclenmesini bir oyanış, milli deyerleri qiymetlendirme görmüşdü. Geri qayıdanda ise bunun eksile rastlaşdı. Resmi daireler milli deyerleri heçe endirmeye, halqı hökünden uzaqlaşdırmağa, hetta müsteqil düşünce sahiblerini bele teqib etmeye çalışırdılar. Proletar beynelmilelçiliyi, inqilab mübarize, sosializm quruculuğu adı altında müstemleke altında inleyen halqların öz medeniyyetlerinden uzaqlaşdırılması prosesi gedirdi. Bu işin heyata keçirilmesinde halqların içinden seçilib hazırlanmış onlarla qelem sahibinin fealiyyeti üçün şerait yaradılmışdı.

Onlara qarşı duranlara ise ağıl, mentiq ve diskussiya ile deyil, işden çıharmaq, teqib etmek, sıhışdırmaq, hebshanaya salmaq ve güllelenmekle cavab verilirdi.

Bele bir çetin şeraitde açıq mübarizenin mümkünsüzlüyünü gören Emin Abid elmi mübarize yolunu seçdi. Min bir eziyyet bahasına da olsa qedim ve orta yüzilliyin qaynaqlarını ortaya qoydu, onları sistemleşdirmeye çalışdı.

20-ci illerde SSRİ-ni bir yenilik ahtarışı bürümüşdü. Bu yeniliyin neden ibaret olduğunu bilmeyenler milli deyerlerden üz dönderib yönlerini Avropaya çevirmişdiler. Edebiyyatımızın incisi sayılan eserler neinki mezmununa, hetta formasına göre de yararsız sayılırdı. Yenilik ahtarışında onların sehv yolda olduqlarını açıq döyüşken bir ruhla söyleyen bilmeyeceyini gören E.Abid elmi üsulla bunu söylemeye çalışırdı.

Poeziyada vezni, qafiyeni, ve ritmi ataraq onu söz yığınına çevirmek isteyenlere cavab olaraq yazırdı: "Şe'rde dil, vezn, nezm şekilli, qafiye bir vasitedir. Qayb bu vasitelerle meydana çıhan mövhum bedii gözellikdir".

Bu fikirleri söyleyen müellif meqalesinin sonunda "Feqet esrimizde, bilhasse inqilab prinsibleri üzerinde qurulan yeni cemiyyetin şe'ri üçün yeni nezm üsullarını qullanmaq bu günkü bedii zövq nöqteyi-nezerinden de menasızdır. tek-tek qurulan serbest ve futurist nezm şekilleri yanında ekseriyyetle göze çarpan yeni sarayın emmameli dilidir. yeni saraya edebiyyat ve senet telqileridir... Bize uyğun olan tipik proleftar şe'ri haqqında tehlillerimiz ikinci meqalemize burakırız"[24] yazmaqla özünün de mühitin terisinden çıhara bilmediyini göstermiş olur.

Müellifin ikinci meqalesine rast gelmedik. Amma "Maarif işçisi" dergisini üç nömresinde yayınılanmış[25] geniş bir meqale mövzu ve mezmunca yuharıda söylenilen fikirin davamı tesiri bağışlayır. Meqale bele başlayır: "Vezn dilin mehsuludur, her ictimai zümrenin öz ilk şe'rine verdiyi aheng dilin ümumi ahenginden ayrılan ünsür-elementler mecmuesidir. Türklerin şe'r musiqisini ahtarmaq üçün ne Erebistan qızğın çöllerine ne de İranın tozlu obalarına getmek lazım deyildir: gözlerin dilimize çevrilmesi, bunun felsefesini anlamaq üçün yeterlidir".[26]

Araşdırmalarında fakt ve menteqe üstünlük veren E.Abid de edebi hadiseler marksist metodologiyasından bahıb sinifi yanaşmağa çalışır. İlk cümlede

"Her ictimai zümrenin öz ilk şe'rine verdiyi ahengden söz açan araşdırıcı ikinci abźasdaca türklerin "bedii zövqlerini doyrmaq meqsedile" yaratdıqları şe'rin savaşlarda qehremanlıq gösteren igidler ve cesur tayfa başçılarına hesr etmiş olduğunu söyleyerek yazır: "Bunlar saz cinsinden tilli çalğılarda çalınaraq yüksek sesle söylenilirdi. Dastanların sözlerinen çalğının havası (melodiyası) verilir ve bu suretle ohunan sözleri bir vezn qazanmış olur".[27]

E. Abide göre, qedim türk dastanları az-çoh ahengdar bir şekilde idi. Bu ahengi yaradan ise cümle başında ve sonunda nidanın elavesi, cümlelerin sonlarına vurğuların salınması, cümle ve ifadelerin tekrarı ve s. Zaman keçdikce bunlar cilalanaraq heca veznini formalaşdırmışdır.

Qedim şe'rimizi "veznli şe'r" adlandıran E. Abid hemin dövre aid qaynaqların az olduğuna tessüflense de fikirlerini şerh etmek üçün Drezden kitabhhanasında sahlanan "Kitabi-Deded Qorqud"dan nümuneler gösterir. O, dastanı müsteqil bir eser kimi deyil "Oğuzname"nin hissesi kimi öyrenir. E.Abide göre veznli şe'rden yavaş -yavaş heca vezni yaranmışdır. Bunun da ilk nümuneleri Kaşqarlı Mahmudun "Divani-luğati ittürk"de qorunub sahlanmış atalar sözleridir.

E. Abid bununla kifayetlenmir. daha qedim qaynaqları öne çekerek Orhan-Yenisey abidelerinde de 7 hecalı şe'r şeklinin olduğunu söyleyir ve ondan nümuneler verir. Araşdırıcıya göre heca vezni formalaşarken önce qısa ahengler yaradan vezinler meydana gelmişdir. O, bunu tebii hesab edir. Çünki çoh besit saydığı dilin birden-bire güc ve mürekkeb parçalı vezinler yarada bileceyini şübhe ile yanaşır.

Araşdırıcıya göre heca vezninin formlaşdığı ilk dövründen başlayaraq en geniş yayılan şekili yeddilik olmuşdur. bu da özünü iki şekilde gösterir. yeddi heca çoh vaht altı hecalı ile qarışıq işlenir. Gah yeddi hecalı dördlüklerin üçünc ümisrası altı hecalı olub, gah da altı hecalı dövrdlüklerin dördüncü misrası yeddi hecalı olub. Müellife göre yeddi hecalı vezn inkişaf etse de altı ve sekkiz hecalıları tam sıhış;dırıb aradan çıharmamışdı.

Heca vezninden olan ilk şe'r numunelerinde qeti ve müeyyen bir şekil olmadığını söyleyen Emin Abid eyni veznde gah durğuyla, dah da durğsuz işlendiyini söyleyir ve "ohunarken bütün misralarda kelmelerin müeyyen yerde bitmesinden doğan ahengin" şe'rin bedii deyerini artırdığını gösterir. başdan sonadek durğusuz ohunan misraları ise "bir nesr parçası" adlandırır, ve "diqqet edildiyi zaman ilk menzumelerde bu ümumi ahengde qulağın hoşlandığı yumşaq bir derece "olmadığı, esger yürüşünden hüsula gelen müteret seslere benzediyi" qenaetine gleri.

Onun fikirince, qısa veznlerde teravetli sesler az duyulur. dil inkişaf etdikce uzun veznler formalaşır. bu da şe'rin bedii deyerini artırır. sübut üçün Kaşqarlı Mahmud "Divan"ına nezer salaraq yazır ki, menzum parçaların çohu qısa veznde-esasen yeddi hecalıdır. Uzun

veznli beytler ise azdır. Bundan anlaşılır ki, 950 il önce türk edebiyyatında heca vezninin bir çoh növü varmış. Zaman keçdikce onlardan bezileri aradan çıhmış, be'zileri de tekmilleşerek daha da cilalanmışdır. Alim sıradan çıhanlara 12 hecalı şe'ri nümune gösterir.

"Divan"dan götürdüyü 13 ve 15 hecalı şe'rlerin durguları üzerinde dayanır. Birincide yeddinci hecadan sonra bir durğu olduğu halda, ikincide dörd durğu olduğunu, bu durğuların üçünün dörd hecalı, sonuncunun ise üç hecalı olduğu söyleyir.

E.Abid "divan"dakı 6-dan 15 hecayedek olan şe'r parçalarını araşdıraraq aşağıdaki qenaete gelir: "Bu gün çoh inkişaf eden on bir hecalıya heç bir nümune yohdur. demek on bir vezn bu zamanlarda henuz çoh tetbiq edilmemişdir".[28]

Müellif heca vezninin en geniş yayılmış şekili olan on birliyin formalaşması zamanını aydınlaşdırmağa çalışır. E.Abid türklerin [illegible] yürüşlerini, ereb ve fars edebiyyatı ile yahından tanış olmalarını ve ondan behrelenmelerini göz önüne getirerek yazır: "Türk edebiyyatı ylanız mövzu (motiv) e'tibarı ile deyil, ümumi tehniki e'tibarı ile de ayrı ve yabançı olan yeni bir edebiyyat qarşısında bulundu. Heca vezni gerek halqın mühtelif sinifleri ve gerek de eşiret aristokratı edebiyyatında yegane vezinken erebin eruzu üzerinde yen ibir şe'r abidesi yükselmeye başladı".[29] Buna nümune olaraq Yusif Has Acibin (Balasaqunlunun) 1069-1970-ci illerde yazdığı 6500 beytli "Quladqu biliki" gösterir.

Araşdırıcıya göre eruz saraylarda, aristokratiya arasında, tehsil ocaqlarında hecanı sıkışdırırdı. Bele bir vaktda "tekiyyeler etrafında yaradılmağa başlayan edebiyayyatın şe'ri ise heca veznini qebul etmişdir". bunun en başlıca sebebi "mefkurevi telqinleri halqa onun anladığı dilde ve rahpat" qavraya bileceyi formada çatdırmaq idi. Nümune olaraq Ehmed Yesevinin "Divani Hikmet"inden ve "Yusif ve Züleyha'dan üç şe'r verir. Bu şe'rlerden biri 7 hecalı ikincisi ise 12 hecalıdır. "Divani Hikmet"de en çoh işledilen şe'r ölçüsü 7 ve 12 hecalıdır. Araşdırmaya celb ede bildiyi nümunelerden bu qenaete gelir ki, ister E.Yesevi, ister Eli hecanın tehnikasını deyişmemiş, onu keçmişlerde olduğu kimi işletmişler. Veznde deyişiklik eden Yunis imre ve müasirleri olmuşdur. "Yunis İmreye qeder zeif ve cılız bir şekilde gelen heca ondan tamamile yeni bir cöhre erz eder... Yusif İmrenin hecası hecai ahenge deyil, misrai ahenge malikdir... Bu gün Qafqaz ve Türkiye edebiyyatında Yunisin bundan 600 il evvelki hecası kimi veznde hakimiyyete çoh az tesadüf edilir" -yazan E.Abid şairin 5,6,7,8,10,11,14,15,,16 hecalı şe' rlerindenbir ve ya iki nümune verir.

"Türkiye tekiyyelerinde qüvvetli inkişaf eden heca vezni ilk zaman Azerbaycan ve Qafqaz oğuzlarında ne şekilde olduğuna aid" elinde vesiqe olmadığına teessüflenen E.Abid" yazılı edebiyyatımızda heca nümunelerine Hetaide tesadüf etdiyini söyleyir. Bunu Hetainini halqçılığından gelmediyini, "kendi dini ve dövlet pronsiplerini aşağı tebeqe ehali arasında yerleşdirmek" meqsedi daşığını söyleyir.

E.abid elde ede bildiyi nümuneler üzerinde apardığı qarşılaşdırmadan aşağıdakı qenaete gelir.

a) Hetainin şe'rleri Azerbaycanda çohdan unulduğunu halde daha çoh ideoloji ehemiyyet daşıdığından Türkiyede "Tekiye dergah"ları terefinden 1920-ci illeredek (ye'ni dergahlar Atatürk hökumeti terefinden bağlananadek) yaşadılmışdır.

b) Hetai on bir hecalı şe'rden daha çoh istifade etmişdir.

v) Hetai heca vezninide yazdığı şe'rler Yunis İmre hecasının yanında sönük ve ibtidaidir.

q) Heyatı ve şehsiyyeti efsaneleri qarışan keremden sonra heca verni Azerbaycanda sür'etle inkişaf edib.

Keremi "şerqi oğuz türkcesinin heca sahesinde şetirdirdiyi Füzulisi" hesab eden, onun sayesinde on bir hecalı şe'ri edebiyyatımızda inkişaf etdiyini seyleyen E. Abid sehifenin etek yazısında "Kerem haqqında ayrıca raşdırma"sı olduğunu gösterir. Çoh teessüf ki, bu gündek hemin araşdırmanın izine düşe bilmemişik.

Hecanın inkişafında Anadoluda yetişen Qaracaoğlan, Kuhi, Derdli, Qul oğlu , Aşıq Emrah kimi el şairlerinin hidmetlerini yüksek qiymetlendiren ve onlardan nümuneler veren araşdırıcı halq şe'rini III Sultan Ehmed sarayına Zelim terefinden zeif şekilde dahil olduğunu Qafqaz ve azerbaycan hanları sarıyında ise qüvvetli bir inkişafa nail olduğunu gösterir. Bunu da sebebini M. P.Vaqif kimi senetkarlarda görür.

E.Abid yazır: "Bizim edebi sahemizde on bir hecanın 17-18 esrlerde çoh meqbul olması, Hetai ile başlayan, Keremle şehsiyyet qazanan hereketin neticesidir. Vaqifin hecası aşina olduğu klassik edebiyyat terbiyyesi dolayısı ile Hetai ve keremden çoh ferqli ve pişkindir".30

Hetta Türkmen şairi Mahtumqulunun heca vezninde yazdığı şe'rleri bele gözden qaçırmayan, ona da elmi qiymet vermeye çalışan E.Abid Türkiye edebiyyatındakı deyişiklik haqqında yazır:

"Namiq Kamal-Ebdülheq Hamid mektebsi ile "Servet-Fünun" nesli terefinden yaşadılan Avropaçılıq şe'rin musiqisini ve ünumi görünüşünü deyişdiyi halda vezn nöqteyi nezerinden bir tesir yapmadı. Eski sarayın en'enevi eruzi tüemadı etdirdildi". E.Abide göre "Şair Mehemmedeminin zühurundan sonra önce Türkiyede, sonra bizde (Ye'ni Azerbaycanda - E.Ş.) heca vezni qullanılmağa başlandı. bu def'a Oğuz şe'rindeki heca eski edebiyyatımızın tekamülü neticesinde tesir altında bulunmaqla beraber şair Mehemmedeminin necasının tetbiqi demektird.[31]

**QAYNAQLAR**

1. Güney Qafqaz herbi Dairesi Harbi Tribunalının 1962-ci ilin dekabrın 24-de E.A. Ehmedova beraet verilmesi haqqında 9/n/62 N-li arayış. Arayışın sür'eti şehsi arhifimizdedir.
2. Azerbaycan Milli tehlükesizlik Hazirliyinin arhivi. E.A.Ehmedovun istintaq işi, N 32796. E.Abidi uşaqlıqdan tanıyan Azerbaycan Politehnik İnstitutunun türk dili müellimi, dosent Elesger Eliyevin 1930-cu ilim aprelin I-de KQB müstentiqine verdiyi izahatdan.
3. Aayev İ. "İki rejimin qurbanı - Eli Abbas Müznib", "Halq" qezeti, 1998, 4 fevral.
4. Azerbaycan Elmler akademiyası Elyazmalar İnstitutunun arhivi. E.A.Ehmedovun şehsi işi.

5. Yene orada ve 1912-20 ci illede Bakıda Türkce yaynlanan qezet ve dergiler.
6. 4-cü qaynaq. abid Ehmedovun "Maarif Nezaretine bir sual".
7.2-ci qaynaq.
8. Şamilov E. Emin Abidin Sovet dörü publisistikasında eebiyyat meseleleri, 1972-ci il, 2 dekabrda Azerbaycan Dövlet Universitetinde ve 1973-cü il, 24 aprelde Azerbaycan Pedaqoji İnsitutunda Azerbaycan telebelirinin I respublika elmi konfransında ohunmş meruzeler, Şamilov E.Emin Abidin publisistikası, diplom işi. ADU-nun jurnalistika fakültesinde 1973-cü ile 10 iyunda müdafie edilmişdir ve fakültenin arhivinde sahlanırlır.
9. Abbasov A. E. "Kommunist" qezeti Azerbaycan Sovet edebiyyatının partiyalılığı ve helqiliyi uğrunda mübarizede. (Filologiya elmler namizedi alimlik derecesi olmaq üçün yazdığı dissertasiya) Bakı, 1965, s. 26. M. E.Reslzade adına BDU-nin esas kitabhansı.
10. "EL şairi Aşıq Qerib" "Komminist" qezeti, 1923 16 noyabr, N259.
11. "Maaarif ve Medeniyet" de 1926, N2-3, s. 17.
12. azerbaycan EA Elyazmalar institutunun arhivi. Ehmedov E.Ab şehsi işi.
13. Abid Emin. Türk halqları edebiyyatında mani nevi ve Azerbaycan bayatılarının hüsusiyyeti, "Azerbaycan Dövlet Neşriyyatı, Bak, 1973, s. 5.
16. Veliyev V. Azerbaycan şifahi halq edebiyyatı (Derslik) Bakı, DU neşriyyatı, 1970, hemin kitabın tekminleşdirilmi neşri. Azerbaycan folkloru. bakı, "Maarif" neşriyyatı, 1985 ve başqaları.
17. Babayev İ.Efendiyev P. "Azerbaycan şifahi halq edebiyyatı" (Desrlik) Bakı "Maarif" neşriyyatı 1970, hemin kitabın tekmilleşdirlmiş neşri, Bakı 1986.
Efendiyev P. Emin Abid Halq yaradıcılığı haqqda. "Azerbaycan folklorşünaslığı meseleleri" (meqaleler toplusu) Bakı, ADU neşriyyatı. 1983, s. 17.
18. Tehmasib M.H. Azerbaycan halq dastanları (orta esrler) Bakı "Elm" neşriyyatı. 1972. Yene hemin müellifin Dede Qorqud boyları haqqında. "Azerbaycan şifahi halq edebiyyatna dair tedqiqler". II cild, Bakı, 1063, Cemşidov Ş. Kitabi-Dede Qorqud. Bakı "Elm" neşriyyatı. 1978. Veliyev İ. Efendiyev P. Azerbaycan şifahi halq edebiyyatı. Bakı "Maarif" neşriyyatı 1992. Nebiyev A. Azerbaycan-özbek folklor elaqeleri. Bakı, "Yazıçı" neşriyyatı 1978. Ramazanov Y. Azerbaycan dilinde yazıb-yaradan ermeni aşıqlar. Bakı, 1977. ve b.
19. Efendiyev P. Emin Abid halq yaradıcılığı haqqında. "Azerbaycan folklorşünaslığı meseleleri". (meqaleler toplusu) ADU neşriyyat 1983 s. 17.
20. Şahbazov E. "İstanbul Darülfununda Azeri Edebiyyatı". "Yeni fikir" qezeti 1926, 9 yanvar.
21. Azerbaycan Dövlet Edebiyayyatı ve İncesenet arhivi. Emin Abid fondu. Fond. 170
22. Abid E. Türk el edebiyyatına elmi bir bahış (Oguzname) "Dan yıldızı" dergisi 1929 N5 (29) s. 30-32 N8 (32) s. 28-29, yene onun "Eşiret dövründeki Azerbaycan edebiyyatına dair vesiqeler" "Azerbaycan öyrenme yolu", dergisi 1930, N3 s. 48-52.
23. Bu mövzuda başqa meqalemizde söhbet açmışıq. Bak: Şamilov E. Pedoqoq, alim Emin Abid. "Azerbaycan müellimi" qezeti 1982, 2 iyul N53 (3657), Dastanın ilk Azerbaycanlı tedqiqatçısı. "Azerbaycan" dergisi, 1987, N4 s. 179-182. Emin Abi "Kitabi-Dede Qorqud" haqqında "Milli folklor" dergisi, (Ankara) 1997, N38 ve b.
24. Abid E. "Edebiyyatda "Mollahana kulturası", "Komminist" qezeti, 1927, 8 fevral.
25. Abid E. "Heca vezninin tarihi (edebiyyat teoriyası haqqında)", "Maarif işçisi" dergisi 1927, N3, N4, N6-7 s. 50-5 s. 58-61 s. 45- 62.
26. E.Abid "Heca vezninin tarihi (edebiyyat terrosiya haqqında)", "Maarif işçisi" dergisi 1927, N3, 6-7 s. 50-55 s. 58-61 s.
27. Yene orada, s. 50
28. Yene orada, ikinci meqale, s. 60.
29. Yene orada, üçüncü meqale, s. 45.
30. E.Abid "Heca vezninin tarihi. s. 61.
31. Yene orada, s. 62.

*(Devamı 43. Sayıda)*